# Azərbaycanı seçən turistlərin sayı ildən-ilə artır

**Ötən il Azərbaycanda turizmin inkişaf tempi onu deməyə əsas verir ki, beynəlxalq aləmdə yüksək qiymətləndirilən davamlı inkişaf tendensiyası ölkəmizdə də uğurla həyata keçirilmişdir. Bunu faktlar da sübut edir.**



Belə ki, 2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən 3 milyon 170,4 min və ya əvvəlki illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 22,9 faizi Gürcüstan, 10,0 faizi Türkiyə, 8,1 faizi İran, 3,4 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, 1,9 faizi Ukrayna, hər birindən 1,6 faiz olmaqla Türkmənistan və İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan, Pakistan və İsrail, 1,2 faizi Böyük Britaniya, 11,0 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 21,3 faiz artaraq 136,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 9,3 faiz artaraq 1141,5 min nəfər olub. Bunun da obyektiv səbəbləri var. Azərbaycan Prezidenti İlham Əliyevin turizmin inkişafı ilə bağlı verdiyi Fərman və sərəncamlar bu sahənin inkişafına güclü stimul yaratmışdır. Eyni zamanda, Azərbaycanda hökm sürən sabitlik, əmin-amanlıq, ictimai-siyasi asayiş də bunun əsas səbəblərindəndir. Son illər bu sahənin inkişafına göstərilən diqqət və qayğı nəticəsində Azərbaycanda geniş turizm infrastrukturu yaradılmış, yeni mehmanxanalar, istirahət guşələri istifadəyə verilmiş, ölkəyə turistlərin cəlb olunması üçün mühüm layihələr reallaşdırılmışdır.

Strateji Yol Xəritəsində turizmin inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlərin reallaşması da yeni uğurlara imkan yaratmışdır. Strateji Yol Xəritəsi cari ilədək iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir. Məlumdur ki, turizm ölkəyə xarici valyuta axınını sürətləndirir, xidmət şəbəkəsinin genişləndirilməsinə təkan verir və beləliklə, çox sayda yeni iş yerləri yaradılır, ölkədə məşğulluğun sahə və istiqamətləri genişlənir.

Ölkəmizdə turizm sahəsi böyük perspektivlərə malikdir. Turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman və s.) inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb. Turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması istiqamətində həyata keçirilən davamlı tədbirlər öz real nəticələrini verməkdədir. Əsas məqsəd turizmin ölkə iqtisadiyyatının ən dayanıqlı, effektiv və rəqabətə davamlı sahəsinə çevrilməsindən ibarətdir.

Azərbaycanda turizmin inkişafı beynəlxalq qurumların hesabatlarında da öz əksini tapır. Məsələn, Dünya İqtisadi Forumunun (DİF) tərtib etdiyi "Səyahət və turizm rəqabətliliyi hesabatı"nda Azərbaycan Gürcüstanı 6 müxtəlif göstərici üzrə qabaqlayır, eləcə də turizm üzrə həyata keçirilən islahatlar göstəricisinə görə Yaponiyadan sonra Azərbaycan ikinci yerdədir. Azərbaycan həqiqətən inkişaf etmiş turizm ölkəsinə çevrilməkdədir. Bundan əlavə ötən ay Böyük Britaniya Bel Çantalı Səyahətçilər Cəmiyyəti (British Backpacker Society) Azərbaycanı səyahət üçün perspektivli ölkələr arasında ilk onluğa daxil edib. Azərbaycan macərapərəstlər üçün maraqlı ölkə kimi təqdim olunub. Qeyd olunub ki, Cəmiyyət Azərbaycanın şimalında dağ kəndlərinə səyahət etmə təklif edir. Bundan başqa, ölkənin Xəzər dənizinin sahilində yerləşməsi qeyd olunub və şimalda "həyəcanverici dağlar"la, cənubda "heyrətamiz palçıq vulkanları" ilə, qərbdə "maraqlı mədəniyyətlərlə", şərqdə isə "Qafqazın ən gözəl şəhəri" Bakı ilə əhatə olunduğu vurğulanıb. Ölkəmizin cəlbediciliyinin əsasında, həmçinin Avropa və Asiya mədəniyyətlərinin kəsişməsində yerləşməsi göstərilib.

Hazırda Azərbaycan turizm sahəsində geniş beynəlxalq əlaqələr qurur. İndi elə beynəlxalq turizm sərgisi yoxdur ki, Azərbaycanın turizm şirkətləri orada iştirak etməsin. Bundan başqa, respublikamız turizm sahəsində inkişaf etmiş ölkələrlə əməkdaşlıq haqqında hökumətlərarası sazişlər imzalayıb. Respublikamızın turizm təşkilatları son illər Dünya Turizm Təşkilatının (DTT) tədbirlərində yaxından iştirak edirlər. Ölkəmizi təmsil edən bir neçə turizm şirkəti də DTT-nin assosiativ üzvləri sırasına daxil olub. Bu isə öz növbəsində DTT-yə üzv ölkələrdə respublikamızın tanınmasına və turizm potensialının təbliğinə geniş imkanlar açır.

Məlumat üçün bildirək ki, Azərbaycan 2023-cü ilə qədər 4 milyona yaxın turist qəbul etməyə hazırlaşır. Bu məqsədlə ölkəmizə ildə 10 faiz turist gəlişini artırmaq nəzərdə tutulub. Proqnoz ildən-ilə öz reallığı ilə rəğbət doğurur.

**Sevinc Azadi,**
***"İki sahil"***